DOI: 10.36719/AEM/2007-2020/55/104-107

**Sevinc Kərim qızı Teymurova**
Bakı Dövlət Universiteti
teymurovasevinc4@gmail.com

# BEYNƏLXALQ HÜQUQ SUBYEKTLİYİNİN MAHİYYƏTİ VƏ NÖVLƏRİ

***Açar sözlər:*** *hüquq subyektliyi, pozitivist, dövlət, məhdud hüquq subyektliyi, qloballaşma*
***Key words:*** *legal personality, positivism, state, limited legal personality, globalization*
***Ключевые слова:*** *правосубъектность, позитивизм, государство, ограниченная правосубъектность, глобализация*

## Giriş

Subyektlik problemi və hüquq subyektliyi hüquq elmi çərçivəsində mühüm yerlərdən birini tutan institutlardan biri kimi qiymətləndirilir. Hüquq subyektliyi münasibət iştirtakçılarının hüquqi statusunu müəyyən edən başlıca amildir. Beynəlxalq hüquqdan irəli gələn hüquq və vəzifələri daşımaq və onları həyata keçirmək qabiliyyətinə malik olan quruma (bəzi hallarda şəxsə) beynəlxalq hüququn subyekti deyilir (1, s. 43).

Klassik anlayışlara görə, müəyyən bir hüquq sistemi içərisində hüquq subyektliyinə malik olan institutlar, o hüquq sistemindən irəli gələn müəyyən hüquqlar və vəzifələr daşıyaraq hüquq qabiliyyətinə malik olmaq ilə yanaşı, digər subyektlərlə hüquq münasibətinə girə bilmək qabiliyyətinə, fəaliyyət qabiliyyətinə də malik olurlar. Yəni, başqa heç bir vasitə olmadan birbaşa bu hüquq və vəzifələrə sahib olmaq və onları həyata keçirə bilmək hüquq subyektliyi ehtiva edir. Hüquq subyektliyi önəmli bir anlayışdır, bir hüquq sistemi içərisindəki institutların hüquqlarını irəli sürə bilmək və hərəkətlərinə görə məsuliyyət daşıya bilməsinin nəzəri əsaslarını ehtiva edir. Məsələn, günümüzdə milli hüquq sistemlərinin hamısında bütün fiziki şəxslər hüquq subyektliyinə sahibdirlər. Ancaq əvvəlki dövrlərdə quldarlıq dövrü hüququnda qullar hüququn subyekti deyil, hüququn obyekti rolunda idilər və sahib olduqları, irəli sürə biləcəkləri hüquqları olduqca məhdud idi. Bir hüquq sistemində hansı institutların subyekt sayılması və subyektliyə bağlı hüquqlarının nə olduğu, o hüquq sistemindəki yerinə və xarakterinə bağlıdır. Adətən, hüquq qaydası kimlərə birbaşa hüquqlar və ya vəzifələr təyin edirsə onlar həmin hüquq sisteminin subyektləridir.

Nəzərə almaq lazımdır ki, bir hüquq sisteminin müəyyən institutların lehinə müxtəlif təminatlar nəzərdə tutması ilə, o institutların birbaşa hüquq sahibi olması arasınnda incə bir xətt vardır. Belə ki, bir çox hüquq sistemi heyvanlara və ya əşyaya müəyyən bir mühafizə nəzərdə tutan normaları əhatə edir. Bu normalar, heyvanların yaxud əşyanın o hüquq sistemində birbaşa hüququn sahibi olduğu mənasına gəlmir. Çünki, hüquq sistemlərində tanınan digər subyektlərlə hüquq münasibətlərinə girmək qabiliyyətləri və öz hüquqlarını müdafiə etmək səlahiyyətləri yoxdur.

Buna istinadən beynəlxalq hüquq sistemində hansı institutların subyekt statusunda olduğunu müəyyən edərkən müəyyən insitutların hüquq və fəaliyyət qabiliyyətinə diqqət yetirmək lazımdır. Bin Cheng, beynəlxalq hüququn subyektləri və obyektləri arasında fərqləndirmələr apararkən hüquq və vəzifələrə birbaşa sahibliyin vacibliyini əsas gətirir (2 ,s. 14).

Digər yandan, hər hansı bir varlığın müəyyən hüquqlara sahib olmasının kifayət etdiyi, digər hüquqlara sahib olmasa belə beynəlxaql hüququn subyekti sayıla bilməsini məsələsi mübahisə mözvusudur. Bu fikrin tərəfdarları qeyd edirlər ki, bir sistemdəki bütün hüquq subyektlərinin eyni hüquq və vəzifələrə sahib olmaqları əsas deyildir. Bu subyektlərin beynəlxalq sistemdə oynadığı rollar və dolayısıyla malik olduqları hüquqlar müxtəlif ola bilər. Beynəlxalq hüquq üçün də eyni vəziyyət nəzərdən keçirilir. Beynəlxalq hüquq subyektliyi mübahisəsiz olan dövlətlər ilə beynəlxalq təşkilatların sahib olduğu hüquq və vəzifələr arasındakı dərin fəqlər bunun aşkar nümunəsidir.

Beynəlxalq hüquq subyektliyi anlayışını ilk dəfə istifadə şəxs Gottfried Wilhelm Leibniz, beynəlxalq aləmdə təsirli olan və dövlətlər kimi tam suverenliyə malik olmasalar da nisbi olaraq müəyyən dərəcədə gücə sahib yeni institutların beynəlxalq hüquq çərçivəsində nəzərə alına biləcəkləri fikrini irəli sürmüşdür. Henri Bonfils, Johann Kaspar Bluntschli, Pasquale Fiore və Friedrich Martens kimi klassik dövr beynəlxalq hüquq doktorinalarının müəllifləri də bu fikir ətrafında öz mülahizələrini irəli sürmüşlər. Bu istiqamətdə qeyd edilmiş ən dəqiq mülahizələrdən biri, beynəlxalq hüquq üzrə məhşur alimlərdən Henry Wheatonun 1855-ci ildə qələmə aldığı əsərlərində göstərmişdir. “Fiziki şəxslər və özəl və ya ictimai sektordakı şirkətlər, xarici suverenlərlə və dövlətlərlə yaxud onların subyektləri və vətəndaşları ilə olan beynəlxalq əlaqələrindən irəli gələn hüquqlarına bağlı beynəlxalq hüquq subyekti ola bilərlər” .

Bundan başqa, ana fikir beynəlxalq hüquq anlayışı, sadəcə dövlətlərin beynəlxalq hüquq subyekti olaraq qəbul edilə biləcəyini və beynəlxalq hüquqdan irəli gələn hüquqlara və vəzifələrə sahib ola biləcəyinin əsası üzərində qurulur. Bu anlayışa görə, dövlət olmayan lakin beynəlxalq hüquqda təsiri olan dövlətdən kənar siyasi təşkilatlar, fiziki şəxslər və başqa birləşmələr beynəlxalq hüququn subyekti ola bilməz. Bu anlayışın əsasında, XVIII-XIX əsrlərdən miras qalan güclü pozitivist hüquqi diktorinalar, yəni beynəlxalq hüququn dövlətlərin icazələrinə dayanan sistem və bu razılaşdırılmış sistemə tərəf olma və hüquq mənbələrini (beynəlxalq müqavilə, konvesiya hüququ və ya hüququn ümumi prinsipləri formasından aslı olmayaraq) yaratma lisenziyasına sahib tək qurumun dövlətlər olduğunu qəbul edən fikirlər yer almışdır (3, s. 140). Güclü pozitivist hüquq doktorinalarının təməlində isə müasir beynəlxalq hüququn köklərinin, XVII əsrin ikinci yarsına başlarkən yaşanan Vestfaliya Sülhü ilə birlikdə meydana gələn müasir milli dövlətlər sisteminin əsaslandırılması qeyd edilməkdədir.

Dövlətlərin müasir beynəlxalq hüquqda həm üfuqi (bütün dövlətlərin bərabərhüquqlu nəzərdən keçirilməsi), həm də şaquli (ən üstün mövqedə dayanması və dövlərlərdən üstün bir qüvvə olmaması) düzülüşündə əldə etdiyi bu mövqenin arxasında dayanan məna isə, yenə pozitivist hüquqla önə çıxarılan "dövlətin suverenliyi" anlayışı olmuşdur. Vestfaliya Sülhünün sonrasındakı dövrdə bir-birindən asılı olmayan və yeganə suveren qurumlar olaraq beynəlxalq aləmdəki mövqelərini gücləndirən dövlətlər, öz torpaqlarında mərkəzi bir idarəetmə və son qərar qəbul etmə səlahiyyəti, digər dövlətlərin daxili işlərinə qarışmağın qadağan olduğu və digər dövlətlərin mühakimə icraatlarından qorunma immunitetinə sahib vəziyyətə gəlmişlər. Bu hal, dövlətlərin suverenliyinin bir prinsipi kimi qəbul edilmiş və bu prinsip müasir beynəlxalq hüququn ən təməl prinsiplərindən biri olmuşdur. Dövlətin yurisdiksiyasında olan torpağın miqdarı və ya qurulan siyasi təşkilatların forması kimi faktiki fərqliliklərə sahib olsalar belə bütün dövlətlər nəzəri hüquqi cəhətdən bərabər sayılmış və müasir beynəlxalq hüquq bunlar arasındakı münasibətləri tənzimləmək əsasında qurulmuşdur. Nəticə etibariylə, bütün qanunlar üzərində ən yüksək səlahiyyətə malik və mütləq suveren dövlət anlayışına təcrübədə tam olaraq rast gəlindiyini söyləmək çətin olardı. Çünki bir dövlətin başında yer alan siyasi hakimiyyət nə təbəəsinə heç bir məhdudiyyət olmadan təsir etməsi, nə də digər dövlətləri idarəedən siyasi hakimiyytlərdən tamam müstəqil şəkildə olması mümkün deyil. Bu nöqtədə Palmas Adası məhkəmə işində hakim Max Huberin də dediyi kimi, dövlətlər arası əlaqələrdə suverenlik anlayışı sadəcə rəsmi olaraq digər siyasi hakimiyyətlərdən bağımsızlıq mənasında işlədilmişdir (4, s. 838) .

Dövlətlər hər zaman suverenliklərini həm milli həm də beynəlxalq aləmdə, fərqli dövlətlərə və ya dövlətdən kənar institutlarla paylaşmaq durumunda qalmışlar. Martin Loughlin, suverenlik anlayışına sadəcə bir fiziki şəxsə və ya cəmiyyətə aid, sabit bir anlayış olmadığını və aktual siyasi korporativ zəminə (məsələn milli suverenlik anlayışının önə çıxdığı milli dövlətlərdə) uyğun formalarda yenidən qurulduğunu bildirmişdir. Bu mənada, beynəlxalq hüquq və dövlətlar arasındakı əlaqələr də mütəmadi olaraq dəyişməkdədir və bu dəyişiklik aktual ictimai və siyasi güclərin liderliyini ələ aldığı maddi və ideoloji dəyişikliyə görə formalaşdırılır.

Beləliklə, XIX əsrdə texnologiya və iqtisadi inkişafın təsiri ilə yaşanan "qloballaşmanın qızıl dövrü", XX əsrdə baş tutmuş iki böyük dünya müharibəsi və bu müharibələri izləyən yeni bir qloballaşma və humanizm dövrü, hüquq doktorinaları və dövlətlər arası təcrübəyə əsaslanan pozitivist hüquq düşüncəsini sarsmışdır. Dövlət suverenliyi anlayışı, dolayısıyla yalnız dövləti nəzərə alan beynəlxalq hüquq anlayışı ciddi meydan oxumalarla qarşılaşmışdır. Bundan əlavə, XX əsr beynəlxalq hüququn əhatə dairəsinə girən sahələr artarkən, buna paralel olaraq beynəlxalq hüququn əhatəsi də müxtəlif sahələr baxımından genişləmişdir. Məsələn, beynəlxalq iqtisadi hüquq, ekologiya hüququ, insan hüququ və ya insan haqqları hüququ kimi bu əsrdə meydana gələn hüquq sahələrinin (yarımsahələri) əlaqədar olduğu subyektlərin sadəcə dövlətlər olması imkansız idi (5).

Müasir beynəlxalq hüququn ən aşkar xüsusiyyətlərindən biri də dövlət olmayan ancaq beynəlxalq hüquqdan təsirlənən və beynəlxalq hüquqa təsir edən institutlar və birləşmələr olaraq adlandırılan dövlətdənkənar institutların (qurumların) beynəlxalq sistemə təsir göstərməsi və bəzi zaman dövlətlərlə rəqabət aparacaq dərəcədə güc qazanmasıdır. Bəzi zamanlar dövlətdən kənar institutlar insanların həyatlarını dövlətlərdən çox daha artıq təsir edə bilirlər. Buna görə də, dövlət mərkəzli ənənəvi beynəlxalq hüquq anlayışı, dövlətdənkənar institutları bu hüquq sahəsinin hüdudlarına daxil etsə də dövlətdən kənar qurumlar artıq hüdudları bəlli olmayacaq qədər böyük önəm qazanmışlar. Xalqlar, yerli xalqlar, milli qurtuluş hərakatları transmilli şirkətlər və bəzi sui generis normaları kimi müxtəlif subyektlərin sahib olduqları beynəlxalq hüquqdan doğan bilavasitə hüquq və öhdəlikləri, həmçinin dövlətlərdən asılı olmayan statusları gündəmə gəlmişdir.

Ənənəvi fikirlərə görə, müasir beynəlxalq hüquqda hüquq subyektliyinə malik olan institutların yalnız dövlətlər olduğu qəbul edilirdi. XIX əsrdə beynəlxalq hüquq doktorinasında geniş yayılan anlayışa görə

fiziki şəxslər də beynəlxalq hüquq mövqeyindən eyni heyvanların, çayların və ya əşyaların olduğu kimi, bir əşya olmaqdan irəli statusa sahib deyildirlər. Fiziki şəxslər də, dövlətlərdən kənar digər subyektlər də beynəlxalq hüquqda birbaşa və ya asılı hüquq və vəzifələrə sahib olmadıqlarından və sözü gedən subyektlərin sahib olduğu hüquq və vəzifələrin əsas olaraq bu faktorların aid olduğu dövlətlərə bağlı olduğu düşünülmüşdür. Buna görə də həmin instiyutlar hüquq subyektliyi sadəcə milli hüquqlar çərçivəsində tanınmışdır və beynəlxalq hüquqda bunlar ancaq dövlətlərin daxili əlaqələri olaraq görülmüşdür.

Günümüzdə, James Crawford, Antonio Cassese ve Cristopher Greenwood kimi bəzi Avstraliyalı və Avropalı beynəlxalq hüquqşünaslar ümumi olaraq, ənənəvi anlayışı müdafiə etməklə, BMT kimi beynəlxalq təşkilatların da dövlətlərdən ibarət qurumlar olduqları üçün beynəlxalq hüquq subyektliyinə sahib ola bildikləri qeyd etmişlər (6, s. 453).

Dövlətdən kənar institutların, xüsusiylə də transmilli şirkətlərin, beynəlxalq hüquqda subyektlik qazanıb beynəlxalq sistemdə daha güclü bir iştirakçı halına gəlmələrini ehtiva edən fikirlər ənənəvi baxışların bəzi boşluqlarını əks etdirməkdədir. İlk olaraq, beynəlxalq hüquq subyektliyi anlayışını müxtəlif dövlətdənkənar institutlara aid edilməsinin beynəlxalq hüququn forması bütünlüyünə və normativ dəyərinə zərər yetirəcəyi fikrini irəli sürənlər də olmuşdur. Qərbi Avropanın Orta əsrlərdə yaşadığı qeyri-stabil dövrləri, bu dövrdə qitəyə hakim olan böyüklü-kiçikli bir çox yarı suveren siyasi quruluşlu və bu quruluşu qeyri-stabil yaxud anarxiya olaraq adlandıran quruluşları, günümüzdə dövlətüstü və dövlət daxilində dövlətdən kənar institutların hamısının beynəlxalq hüquq subyektliyinin rəsmən tanınması halında, müasir beynəlxalq hüquq sisteminin pozulacağı fikrini bildirməkdədirlər. Çünki sistemin təməl dönüş nöqtəsi olan dövlətin birləşdirici gücünün ortadan qalxması halında beynəlxalq hüuqun əhatə dairəsinin qarşısı alınmaz hala gələcəyi söylənir.

Beynəlxalq hüquq subyektliyinə bağlı ənənəvi fikirlərin, beynəlxalq sahədə yaşanan inkişafı əhatə etməkdə və açıqlamaqda kifayət etmədiyini qeyd edə bilərik. Bu səbəbdən beynəlxalq hüquq subyektliyinə yeni fikirlər meydana gəlməyə başlamışdır. Xüsusiylə XX əsrin ikinci yarsında beynəlxalq təşkilatların beynəlxalq hüquq subyektliyinin rəsmən tanınması və fiziki şəxslərin bilavasitə hüquq və vəzifələrə sahib olmaqlarını təmin edən inkişaf, ənənəvi fikirlərlə formalaşdırılmış nəzəriyyələrin beynəlxalq hüquq doktorinalarındakı yerini sarsmışdır. Bu dövrdə, doktorinada hakim olan dövlət mərkəzli meyllər zəifləmiş və dövlətdən kənar institutların beynəlxalq hüquq subyektləri olaraq qəbul edilməsi gərəkdiyini irəli sürən fikirlər qüvvətlənmişdir. Dövlətdən kənar institutların beynəlxalq subyektliyinin var olub olmadığını və varsa bu subyektliyin əhatə dairəsinin nə olduğuna bağlı müxtəlif fikirlər irəli sürülmüşdür. Bu fikirlərin əhatə dairəsi beynəlxalq təşkilatlar və fiziki şəxslərlə məhdudlaşmamış, transmilli şirkətləri, silahlı təşkilatları, milli qurtuluş hərakatlarını, qeyri-hökümət təşkilatları kimi bir çox institutların subyektliyinə yönəlmiş fikirləri əhatə edirdi. Günümüzdə, bu məsələ hələ də beynəlxalq hüququn ən mübahisəli məsələlərindən biri olaraq qalmaqdadır.

Beynəlxalq hüquq subyektliyi və dövlətdən kənar institutlar mövzusunda doktorinalarda öndə gələn adlardan biri olan Christian Okeke, beynəlxalq hüquq subyektliyi anlayışına sadə və son dərəcə geniş təfsir oluna biləcək bir anlayış vermişdir. Bu anlayışa görə, beynəlxalq hüquqdan irəli gələn öhdəliklərə və bu öhdəliklərin pozulduğu təqdirdə buna görə məsuliyyət daşıma qabiliyyətinə malik olan, beynəlxalq hüquqdan irəli gələn hüquqlara da sahib olub yalnız bu hüquqlardan faydalanan mövqedə olmayan, həmçinin beynəlxalq hüquq sistemində tanınan digər hüquq subyektləri ilə müqavilələr və ya başqa cür hüquqi münasibətlərə girə bilmək qabiliyyətinə malik olan hər cür varlıq beynəlxalq hüquq subyektliyə malikdir (7, s. 110).

David Feldman da bənzər bir məntiqlə, beynəlxalq hüquq subyektliyinin ümumi kriteriyalarını bu şəkildə sıralamışdır: 1) beynəlxalq hüquqi əlaqələrdə iştirak etmə; 2) bu əlaqələrdə müstəqil iradəsinin olması; 3) digər beynəlxalq hüquq subyektlərinə qarşı müdafiə edə biləcəkləri hüquq və vəzfələrini olması. Hatta Hersch Lauterpacht, əlavə hər hansı bir kriyeriyaya gərək duymadan, sadəcə hüquq və vəzifələrə sahib olmağı yetərli hesab etmişdir (8, s. 14). Bu subyektliyi dövlətlərinki qədər geniş olmaq məcburiyyətində olmadığını bildirərək, məhdud bir beynəlxalq hüquq subyektliyi anlayışını qəbul edir. Məhdud beynəlxalq hüquq subyektliyi anlayışı, beynəlxalq hüquq sisteminin dəyişən dinamikliyi üzərində önəmli fikirləri olan Wolfgang Friedmann da mənimsəmişdir .

## Nəticə

Nəhayət tam obyektiv və subyektiv olmaqla iki növ beynəlxalq hüquq subyektliyinin mövcudluğu qəbul edilmişdir. Belə ki, beynəlxalq təşkilatlar üçün də deyildiyi kimi, beynəlxalq hüquq subyektliyi anlayışına mütləq və məhdud bir anlayış olaraq nəzərə almaq yerinə subyektin sahib olduğu müəyyən hüquqlara və vəzifələrə görə bölünüb məhdud bir səviyyədə də olsa beynəlxalq hüququn subyekti ola biləcəyini nəzərə almaq daha doğru olardı. Dolayısıyla məhdud da olsa dövlətdən kənar institutların beynəlxalq hüququn

subyekti olması qənayətindəyik. Müasir beynəlxalq hüququn təbiəti və quruluşundan irəli gələrək mübahisəsiz obyektiv hüquq subyektliyində sahib olan dövlətlər və bəzi beynəlxalq təşkilatlar beynəlxalq hüquqda birbaşa və çox geniş mənada hüquqlara sahib olub bütün digər beynəlxalq hüquq subyektlərinə nisbətən mütləq subyekt olaraq qəbul edilir. Yəni erga omnes bir subyektliyə malikdirlər.

Məhdud bir hüquq subyektliyinə dayanan hüquq və vəzifələr, beynəlxalq hüququn dövlətlər başda olmaq üzrə substantiv şəxslər arasında həyata keçirilən bir beynəlxalq razılaşmadan, beynəlxalq toplumun ehtiyaclarından və ya sahib olunan güc və təsirli nəzarətdən yarana bilər. Dolayısıyla, sahib olunan hüquq və vəzifələr subyektə görə dəyişir. Məsələn, bəzi subyektlər beynəlxalq müqavilə bağlamaq hüququna və ya beynəlxalq məhkəmələrə getmə hüququna sahib olsa da, bəziləri olmaya bilər. Buna görə də müəyyən xüsusi hüquq və vəzifələrə malik olmaqla, beynəlxalq hüquq subyektliyinə malik olub olmaması mübahisəsi arasındakı fərqi bilmək lazımdır. Nəticədə, məhdud beynəlxalq hüquq subyektliyi anlayışının qəbul edilməsi düzgün addım olmuşdur.

## Ədəbiyyat

1. Hüseynov L.H. Beynəlxalq hüquq. Bakı-2012: "Qanun" nəşriyyatı, səh 368.
2. Ed. Andrea Bianchi, Ashgate, Farnham, 2009.
3. Hersch Lauterpacht, International Law Collected Papers: I. General Works, Ed. E.Lauterpact, Cambridge, Cambridge University Press, 2009.
4. Island of Palmas case (Netherlands, USA), Reports of International Arbitral Awards, C: II, 1928. https://l egal.un.org/riaa/cases/vol_II/829-871.pdf
5. Report of the Study Group of the International Law Commission, A/CN.4/L.682, 13 April 2006.
6. The Presbyterian Church Of Sudan, et al. v. Talisman Energy., 453 F. Supp. 2d 633, 2006. http://www.internationalcrimesdatabase.org/Case/43/Presbyterian-Church-Of-Sudan-v-Talisman-Energy/
7. Christian Okeke, Controversial Subjects of Contemporary International Law: An Examination of the New Entities of International Law and their Treaty-Making Capacity, Rotterdam, Rotterdam University Press, 2014.
8. Lauterpacht, "The Subject of International Law".

## Nature and types of international legal subject

**Summary**

International legal entity, the ability of a subject of international law to be a participant in international legal relations, in particular to conclude and execute international agreements. International jurisprudence is included in the existence of corresponding rights and obligations. The right of primary and secondary subjects of international law differs. Thus, for a state, legal personality is universal, they possess it in full volume from the moment of their creation. Nations and peoples who fight for their self-determination, to claim their recognition by the subjects of international law only in compliance with certain conditions.

## Природа и виды международной правосубъектности

**Резюме**

Международная правосубъектность – это способность субъекта международного права быть участником международных правоотношений, в частности заключать и выполнять международные дого воры. Международная правосубъектность заключается в наличии соответствующих прав и обязанносте. Правосубъектность первичных и вторичных субъектов международного права отличается. Так для государств правосубъектность является универсальной, они владеют ей в полном объёме с момента их создания. Нации и народы, которые борются за своё самоопределение, вправе претендовать на признание их субъектами международного права только при соблюдении определенных условий.

**Rəyçi: prof. Ə.Sadıqov**

Göndərilib: 25.06.2020 Qəbul edilib: 28.06.2020